**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
__________dos. Zaur Məmmədov
"09" 09 2025-ci il

***Fənn sillabusu***

**İxtisaslaşma:** 060103- İngilis dilinin tədrisi metodikası və metodologiyası
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:**AMTMOF ( Dünya ədəbiyyatı) Fənn proqramı: Lənkəran Dövlət Universittinin Elmi Şurasının 21.12.2023-cü il tarixli 03 saylı qərarı ilə nəşr hüququ qrif verilmişdir.
**Kodu:** MİF-B03
**Tədris ili:** II (2025-2026.) Semestr: III
**Tədris yükü cəmi:** 30 saat. (15 saat mühazirə, 15 saat seminar)
**Tədrisalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** fil.e.d., prof.Kazımov Kamran Şahverən o.
**Məsləhət günləri və saatı:** IV gün, saat: $11^{00}$-$13^{00}$
**E-mail ünvanı:** kkamran@mail.ru
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**III.Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**
1. T.Novruzov. Qədim Şərq ədəbiyyatı.
2. C.Nağıyev. Qədim Şərq ədəbiyyatı
3. T.Novruzov. Qədim Dünya ədəbiyyatı
4. T.Novruzov. Antik ədəbiyyatı tarıxi.
5. T.Novruzov. Orta əsrlər Qərb ədəbiyyatı tarixi.
6. Yegizarova və b. XIX əsr Xarici ölkə ədəbiyyatı (İ.Şıxlının tərcüməsi)
7. İ.Şıxlı. XX əsr Xarici ölkə ədəbiyyatı

**IV.Prerekvizitlər:** Fənnin tədrisindən öncədən hər hansı fənninin tədrisinə zərurət yoxdur.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI.Fənnin təsviri və məqsədi:**AMTMOF kimi "Dünya ədəbiyyatı" tədris kursu "Xarici dillər" kafedrası nəzdində "Dilşünaslıq" və İngilis dilinin tədrisi metodikası və metodologiyası istiqaməti üzrə ixtisasların tədris planı çərçıvəsində işlənmişdir. Tədris planına uyğun olaraq bu kurs bakalavr tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun tədrisi tədris ilinin I semestrində 30 saat (15 s. mühazirə, 15 s. seminar) nəzərdə tutulur.

Müasir şəraitdə elmi informasiyanın artması yüksək peşə və nəzəri hazırlıqla yanaşı, müstəqil yaradıcı iş bacarığına malik yüksək ixtisaslı filoloqların hazırlanması ciddi əhəmiyyət daşıyır. Bununla bağlı, ali məktəbin tədris planı tələbələrin xarici ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə yaxından tanış olmaları, əsərlərinin ümumbəşər əhəmiyyətini, Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyənləşdiyini öyrənmələri nəzərdə tutulur.

Kursun məqsədi "Dünya ədəbiyyatı" kursunun yeni tələblər baxımından tədrisi, dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılıqlarının tələbələrə dərindən

mənimsədilməsidir ki, bu da müasir dövrdə təhsildə ən vacib faktorlardan birinə çevrilmişdir. Dünya xalqlarının zəngin ədəbi – bədii və kulturoloji irsinin öyrənilməsi təkcə bu faktla bitmir, bu proses ədəbi irslərin mənimsənilməsi ilə yanaşı, bu ədəbiyyatların tədqiqində və bir sıra elmi–nəzəri, estetik–metodoloji prinsiplərin də yeni konsepsiyalar əsasında işlənməsində ədəbiyyatşünaslara yardımçı olur.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X.Təqvim-mövzu planı:** *Mühazirə 8 saat, Seminar 7 saat,* ***Cəmi 15 saat***

| N | Keçirilən mühazirə və seminar mövzuların məzmunu | Müh. | Sem. | Tarix |
|---|---|---|---|---|
| 1 | **Mövzu: Qədim Şərq ədəbiyyatı (Şumer-Akkad ədəbiyyatı). Qədim Misir və İran ədəbiyyatı**<br>**Qısa icmal:** Qədim Şərq mədəniyyəti arxaik və ibtidai mədəniyyətin davamı kimi. Şumer-Akkad mədəniyyətinin yaranması və inkişaf tarixi. S.N.Kramer Şumer abidələrinin naşiri və tədqiqatçısı kimi. | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | *Qədim Misir ədəbiyyatı.* Misir ədəbiyyatında siyasi mövzulara geniş yer verilməsinin səbəbləri.<br>*Qədim İran ədəbiyyatı.* İslam dövrü fars ədəbiyyatı. "Avesta".<br>**Mənbə:1, 2, 3, 4, 5** | | | |
| 2 | **Mövzu:Qədim Yunan və Roma ədəbiyyatı**<br>**Qısa icmal:** Qəhrəmanlıq nəğmələri xalq qəhrəmanlıq eposunun əsası kimi. Troya müharibəsinin tarixi və mifoloji ünsürləri. Homerin «İliada» və «Odisseya» dastanları.<br>*Qədim Roma ədəbiyyatı.* Roma quldarlıq cəmiyyətinin tarixi Roma və Yunan mədəniyyətinin əlaqəsi:fəlsəfi,etik–estetik, forma–üslubi əlaqələr.<br>**Mənbə:1, 2, 3, 4, 5** | 2 | 2 | |
| 3 | **Mövzu:Orta əsr və intibah dövrü cəngavər (kurtuaz) ədəbiyyatı**<br>**Qısa icmal:** Orta əsrlər eposu. İbtidai icma quruluşunun dağılması və feodal əlaqələri yaranması dövründə ədəbiyyat. Kelt eposu: Kuxulin haqqında İrland saqaları.<br>Almaniyada qəhrəmalıq eposu: "Nibellunqlar haqında dastan" və onun ən qədim poeziyaya gedib çıxan kökləri.<br>**Mənbə:1, 2, 3, 4, 5** | 2 | 2 | |
| 4 | **Mövzu:**İntibah dövrünün ədəbiyyatı.<br>**Qısa icmal:** *İtaliyada intibah.* Ədəbiyyatda yeni meyllər.<br>Dante orta əsrlərin son və yeni dövrün ilk şairi kimi. «İlahi komediya».<br>Petrarka İtalyan humanizminin banisi kimi.<br>*Fransada intibah.* Fransa XV-XVI əsrlərdə. Rablenin yaradıcılığı fransız humanizminin ən yüksək zirvəsidir. *İspaniya intibah.* XVI əsrdə ispan cəngavər romanının geniş inkişafı. Migel de Servantesin həyatı və yaradıcılıq yolu. «Don Kixot» romanı.<br>**Mənbə:11, 2, 3, 4, 5** | 2 | 2 | |
| 5 | **Mövzu: XVII əsr Qərb ədəbiyyatı (Ümumi məlumat)**<br>**Qısa icmal:** XVII əsr Avropa ölkələrinin mədəniyyətində xüsusi bir dövr kimi. Bu dövr ədəbiyyatında əsas ədəbi cərəyanlar və meyllər. Klassisizm, Barokko, Rokoko.<br>XVII əsr ədəbiyyatında realizm problemi. Ədəbiyyatda demokratizm meyllərinin inikası.<br>*XVII əsr Italiya ədəbiyyatı.* XVII əsr İtalyan klassisizmi və Qalileyin yaradıcılığı. Marino və marinistlər.<br>*XVII əsr Ispan ədəbiyyatı.* XVII əsr İspan ədəbiyyatının çiçəklənməsi və «qızıl dövrü kimi». Lope de Veqanın «Sevilya ulduzu» dramı.<br>*XVII əsr Fransa ədəbiyyatı.* XVII əsr Fransa tarixinin əsas hadisələri. Əsas ədəbi cərəyanlar.<br>**Mənbə:1, 2, 3, 4, 5** | 2 | 2 | |
| 6 | **Mövzu:**XVIII əsr Qərb ədəbiyyatı<br>**Qısa icmal:** Maarifpərvərlik dövrü və onun ideoloqları.<br>Maarifçilik proqramının əsas müddəaları və şüarları. Qərbi Avropa ölkələrində maarifçilik hərəkatının özünəməxsusluğu.<br>*XVIII əsr Fransa ədəbiyyatı.* Fransada maarifçiliyin ilk mərhələsi. D.Defonun "Robinzon Kruzo" əsəri.<br>*XVIII əsr Alman ədəbiyyatı.* XVIII əsrdə Almaniyanın iqtisadi geriliyi və parçalanmasının əsas səbəbləri. F.Şillerin həyat və yaradıcılığı<br>**Mənbə: 1, 2, 3, 4, 5** | 2 | 2 | |
| 7 | **Mövzu: XIX əsr xarici ölkə ədəbiyyatında romantizmin təşəkkülü**<br>**Qısa icmal:** 1830-1871-ci illərdə tarixi prosesin xüsusiyyətləri Mərhələlər: 1) 1789–1830-cu illər-romantizmin təşəkkülü və təsirinin yüksəlişi dövrü; 2)1830-1871–ci illərdə romantizmin formalaşması və estetik görüşlərdə aparıcı mövqe tutması dövrü. | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | XVIII əsrin sonu-XIX əsrin əvvəllərində romantizmin yaranmasının səbəbləri və tarixi-ictimai qaynaqları. V.Hüqo və onun "Səfillər" əsəri. **Mənbə:1, 2, 3, 4, 5** | | | |
| 8 | **Mövzu: XIX əsrin II yarısı XX əsrin I yarısında Amerikan ədəbiyyatı** **Qısa icmal:** Q.Biçer-Stou.Yazıçının Amerikada quldarlığın ləğvinə qarşı yönəlmiş publisistikanın üslubi priyomlarının «Tom dayının daxması» əsərində inikası. Əsərdə şər qüvvələrinə qarşı müqavimət göstərməmək ideyası. *T.Drayzer yaradıcılığı.* T.Drayzer Amerika ədəbiyyatında tənqidi realizmin görkəmli nümayəndəsi kimi. "Kerri bacı", "Cenni Herhardt" əsərləri. Əsərlərdə cəmiyyətdə mövcud nöqsanların tənqidi **Mənbə:1, 2, 3, 4, 5** | 1 | 1 | |

**XI.Fənn üzrə tələblər, tapşırıqlar:**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:

Öyrənən tanış olur:

-tələbələrin xarici ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə,

-dünya ədəbiyyatı korifeylərin əsərlərinin ümumbəşər əhəmiyyəti ilə,

-dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyənləşdirilməsi ilə.

**XII. Fənn üzrə təlimin nəticələri:**

Tələbələr dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılıqlarını dərindən mənimsəyirlər.

Tələbələr dünya ədəbiyyatının görkəmli ədəblərinin əsərlərinin ümumbəşər əhəmiyyətini, Azərbaycan ədəbiyyatşünaslığında onların yerinin müəyyənləşdiyini öyrənirlər.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. Şumer-Akkad ədəbiyyatı. Yaranma tarixi və inkişafı
2. "Bilqamış" dastanı. Dastanda əbədi həyat problemi
3. Qədim Misir ədəbiyyatı və onun inkişaf mərhələləri
4. Qədim İran ədəbiyyatı,"Avesta" əsərinin hissələri
5. Qədim Yunan ədəbiyyatı. Homerin "İliada" və "Odisseya" əsərləri
6. Aristofanın komediyaları və onların bədii xüsusiyyətləri
7. Qədim Roma ədəbiyyatı
8. İtaliyada intibah ədəbiyyatı. F. Petrarka
9. İspaniyada intibah ədəbiyyatı. M.de Servantesin "Don Kixot" əsəri
10. Fransada intibah ədəbiyyatı. F. Rable

**II Kollokvium sualları**

1. XVII əsr Avropa ədəbiyyatında klassisizmin yaranması
2. XVII əsr İtaliya ədəbiyyatı.
3. XVII əsr Fransa ədəbiyyatı. J.B.Molyerin "Xəsis" komediyası
4. XVIII əsr Qərb ədəbiyyatında maarifçilik
5. D.Defonun "Robinzon Kruzo" əsərinin məzmun və təhlili
6. XIX əsr xarici ölkə ədəbiyyatında romantizmin təşəkkülü
7. V.Hüqo yaradıcılığı. "Səfillər" əsərinin məzmunu
8. ABŞ-da romantizm
9. C.F.Kuperin həyat və yaradıcılığı.
10. C. F. Kuperin "Ləpirçi" əsəri
11. XIX əsr realizmi
12. O.de Balzak yaradıcılığı

13. B.Stounun "Tom dayının daxması" əsərinin məzmunu və təhlili
14. T.Drayzer yaradıcılığı
15. T.Drayzerin "Cenni Herhardt" əsərinin məzmunu və təhlili

**XV. İmtahan sualları:**

1. Şumer-Akkad ədəbiyyatı.
2. "Bilqamış" dastanı
3. Qədim Misir ədəbiyyatı
4. Qədim İran ədəbiyyatı,"Avesta" əsərinin hissələri
5. Qədim Yunan ədəbiyyatı
6. Homerin "İliada" əsərinin məzmunu
7. Aristofanın komediyaları
8. Qədim Roma ədəbiyyatı
9. İtaliyada intibah ədəbiyyatı.
10. İspaniyada intibah ədəbiyyatı.
11. M.Servantesin "Don Kixot" əsərinin məzmunu və təhlili
12. XVII əsr Avropa ədəbiyyatında klassisizmin yaranması
13. XVII əsr İtaliya ədəbiyyatı.
14. Lope de Veqanın "Sevilya ulduzu" əsərinin məzmunu və təhlili
15. XVII əsr Fransa ədəbiyyatı.
16. J.B.Molyerin "Xəsis" komediyası.
17. XVIII əsr Qərb ədəbiyyatında maarifçilik
18. D.Defonun "Robinzon Kruzo" əsərinin məzmun və təhlili
19. F.Şillerin yaradıcılığı
20. XIX əsr xarici ölkə ədəbiyyatında romantizmin təşəkkülü
21. V.Hüqo yaradıcılığı
22. V.Hüqonun "Səfillər" əsərinin məzmunu
23. ABŞ-da romantizm
24. C.F.Kuperin həyat və yaradıcılığı
25. C. F. Kuperin "Ləpirçi" əsəri
26. XIX əsr realizmi
27. O.de Balzak yaradıcılığı
28. B.Stounun "Tom dayının daxması" əsərinin məzmunu və təhlili
29. T.Drayzer yaradıcılığı
30. T.Drayzerin "Cenni Herhardt" əsərinin məzmunu və təhlili

"AMTOF"(Dünya ədəbiyyatı) fənninin sillabusu 060103-İngilis dilin tədrisi metodikası və metodologiyası ixtisaslaşmalarının tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus «Azərbaycan dili və ədəbiyyat» kafedrasında müzakirə edilərək, təsdiq edilmişdir (9 sentyabr 2025-ci il, protokol № 01).

**Kafedra müdiri:** **dos.Q.İ.Rufullayev**

**Müəllim:** **prof. K.Ş.Kazımov**

Tanış oldum: dos. E.S.Mirzəyev